# Azərbaycan dünyada sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan ölkə kimi tanınır

*Müasir dövrdə qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi, dini dəyərlərinin qorunması zərurətini aktuallaşdırıb. Ziddiyyət bəzən sivil bəşər cəmiyyətinin minilliklər boyu mənimsədiyi fenomen dəyərə qarşı yönəlir. Söhbət milli-mənəvi, mədəni dəyərlərin "yad təsirlərdən qorunması" adı altında tolerantlıq prinsipinə qarşı yönəlmiş təhlükədən gedir.*

Bu baxımdan Azərbaycanda aparılan çoxmədəniyyətli dialoq müxtəlif dinlərə və məzhəbə malik insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Hələ şəhərdövlətlərin yarandığı ilkin dövrlərdən bu coğrafi məkanda müxtəlif etnoslar birgə yaşamış, uzun sürən mənasız qarşıdurma və müharibələrdən, toqquşmalardan sonra dinc və qarşılıqlı anlaşma şəraitində yaşamağın zəruriliyini dərk etmişlər. Azərbaycanda tarixən müxtəlif dövlətlərin işğalına, hücumlarına məruz qalmış, dağıdıcı proseslər nəticəsində fərqli mədəniyyətlərin təsiri, istər-istəməz ictimai şüurda müəyyən izlər buraxmışdır. Yəni, bu ərazidə yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş, yaranmış şərait, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, onları yaxınlaşmağa vadar etmişdir. Tədricən müxtəlif dinə, məzhəbə, dilə, mədəniyyətə malik insanların ümumi vətəninə çevrilən Azərbaycanda tolerantlıq düşüncəsi getdikcə inkişaf etmişdir.

Ölkəmizin rəhbəri İlham Əliyevin milli mədəniyyətin və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti müasir dövrün reallıqları ilə şərtlənir. Dövlət başçısı bununla bağlı deyib: "Azərbaycan sivilizasiyaların dialoq işinə töhfə verməyə çalışır. Ölkəmiz müxtəlif dinlərin nümayəndələri arasında daha yaxşı anlaşmanın yaradılmasına xidmət edən çoxsaylı tədbirlər keçirir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir, bütün millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh, anlaşma şəraitində yaşayırlar".

Azərbaycanın dini-etnik sivilizasiyaların qovuşduğu məkan kimi tanınmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir. Bakıda Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü və UNESCO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda həmişə sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Bu müsbət meyillər hazırda da davam edir. Ölkəmizdə heç vaxt dini, yaxud da milli zəmində qarşıdurma baş verməyib, multikulturalizmlə bağlı meyillərin gücləndirilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də təqdir olunmaqdadır.

Bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin artıq regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildiyinə sübutdur. Başqa sözlə, Bakı şəhərinin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını almışdır.

Məlumdur ki, Prezident İlham Əliyev 2016-cı il 25-27 aprel tarixlərində Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının (SA) 7-ci Qlobal Forumunun keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Bu məqsədlə Qlobal Forumun təşkili üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Mədəniyyət və Turizm Nazirliyinə 3,5 milyon manat ayrılıb.

"İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında keçiriləcək foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri və fondlar daxil olmaqla ümumilikdə 2000-ə yaxın qonağın qatılacağı gözlənilir. Qeyd edək ki, forumda BMT Sivilizasiyalar Alyansının rəhbəri Nassir Əbdüləziz Əl-Nasser, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər nüfuzlu qonaqlar iştirak edəcəklər. Tədbir çərçivəsində keçiriləcək sessiyalarda Avstraliyanın keçmiş baş naziri Kevin Radd, İspaniyanın sabiq baş naziri Xose Luis Rodriges Sapatero, Fransanın keçmiş baş naziri Dominik de Villpen, Sloveniyanın sabiq Prezidenti Danilo Türk, dini lider və islam alimi Şeyx Abdalla bin Baya, ötən illərin məşhur fransız futbolçusu Kristian Karambönün iştirakı da gözlənilir.

Qlobal Forumun Bakıda keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Forumda ümumilikdə üç gün müddətində yüksək səviyyəli rəsmilərin toplantısı, 30-a yaxın sessiyanın keçirilməsi nəzərdə tutulub. Qlobal Forum "birgəyaşayış" məfhumunun "inklüziv" cəhətini vurğulamaqla çağdaş dövrün getdikcə daha da müxtəlifləşən cəmiyyətlərində hər kəsə bərabər imkanların təmin olunduğu inklüziv yaşayış tərzinə dair çağırışın səslənməsini və bu istiqamətdə irəliləyişin əldə olunmasını təmin etmək üçün müxtəlif sektorların çoxsaylı perspektivlərini gündəmə gətirəcək.

Xalqımızın tarixi tolerantlığı, Prezident İlham Əliyevin uğurlu rəhbərliyi və Azərbaycanın Şərqi Avropa və Qərbi Asiya arasındakı coğrafi mövqeyi kimi amillərin təsiri nəticəsində ölkəmizdə elə bir mühit yaranıb ki, burada müxtəlif dini və etnik mənsubiyyətə aid olan insanlar qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşayırlar.

Heç bir xalqı milli-mənəvi və dini dəyərlər qədər birləşdirən ikinci qüvvə yoxdur. Azərbaycan xalqı sivil, demokratik və dünyəvi dövlət prinsiplərinə sadiq qaldığını bəyan etsə də, respublikamızda dinə dövlət qayğısı bu gün də qabarıq hiss olunur. Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də islam dinidir. Son illər dövlət xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində daha çox addımlar atır. Ümumiyyətlə desək, xalqın tarixi yaddaşının, dini və milli-mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması cənab İlham Əliyevin dövlət başçısı kimi daim diqqət mərkəzində saxladığı məsələlərdəndir.

BMT-nin Sivilizasiyalar Alyansının (SA) 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi dünyanın diqqətini növbəti dəfə Azərbaycana yönəldəcək. Bu da təbiidir. Çünki dünyanın tanınmış siyasi və ictimai xadimin, ekspertlərin bir araya gələrək "İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında vacib bir məsələni müzakirə etmələri son dərəcə mühüm əhəmiyyət kəsb edir.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***